

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# Şərq qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 221 (21.882)

*22 noyabr 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda Yeni Azərbaycan Partiyasının 25 illiyi qeyd edilmişdir





Noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvləri Yeni Azərbaycan Partiyasının və müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildirmişlər.



Tədbir "Araz" Dövlət Qəbul Evində davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Yeni Azərbaycan Partiyası 25 il bundan əvvəl – ölkəmizin həyatında ağır bir dövrdə yarandı. O vaxt iqtisadiyyatı dağılmış vəziyyətdə olan Azərbaycanda siyasi böhran da dərinləşmiş, sosial-iqtisadi vəziyyət ağırlaşmışdı. 1992-ci il noyabrın 21-də yaradılan partiyamız çox keçmədi ki, böyük siyasi hərəkat xarakteri aldı. Yarandığı gündən Yeni Azərbaycan Partiyası hakimiyyət uğrunda deyil, Azərbaycanı məhvə sürükləyən, müstəqilliyimizi təhlükə altına alan uğursuz siyasətə qarşı idi. Bu gün isə Yeni Azərbaycan Partiyası böyük güc mərkəzidir. ***"Yeni Azərbaycan Partiyasının gücü bundadır ki, onun təməlində duran prinsiplər əməli surətdə həyata keçirilir. Yeni Azərbaycan Partiyasının gücü ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyası liderinin daxili və xarici siyasətini xalq bəyənir və dəstəkləyir"***, – deyən ölkə Prezidenti partiyamızı və ölkəmizi ulu öndər Heydər Əliyev yolu ilə aparır.

Ali Məclisin Sədri demişdir: Yeni Azərbaycan Partiyasının inkişafında müstəqil və qüdrətli Azərbaycanın inkişafı aydın görünür. Yaradıcısı ümummilli lider, özü isə ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası daim Azərbaycançılıq uğrunda mübarizənin önündə dayanmışdır. Bu gün əminliklə deyirik ki, ötən 25 ildə Yeni Azərbaycan Partiyasının keçdiyi yol, əldə etdiyi nailiyyətlər böyük quruculuq salnaməsidir. Azərbaycanın davamlı inkişafı, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, güclü orduya malik olmağımız, dünyanın inkişaf edən ölkələri sırasında layiqli yer tutmağımız Yeni Azərbaycan Partiyasının təməlində duran prinsiplərin əməli surətdə həyata keçirilməsinin nəticəsidir.



Qeyd olunmuşdur ki, Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatı da ümummilli liderimizin və ölkə Prezidentinin tövsiyələrini əsas tutaraq böyük inkişaf yolu keçmişdir. Partiyanın Muxtar Respublika Təşkilatı, eləcə də şəhər və rayon təşkilatları üçün bütün tələblərə cavab verən inzibati binalar istifadəyə verilmişdir. Bundan başqa, yaradılan yeni qəsəbə və kənd mərkəzlərində 134 ərazi ilk partiya təşkilatı ayrıca iş otaqları ilə təmin edilmişdir. Ötən dövrdə partiyamızın sıraları cəmiyyətin bütün təbəqələrindən olan üzvlər hesabına xeyli genişlənmişdir. Əgər 2000-ci ildə Partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının sırasında 17 min üzv vardısa, hazırda üzvlərin sayı 3 dəfədən çox artaraq 54 minə çatmışdır.

Ali Məclisin Sədri demişdir: Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının mühüm nailiyyətlərindən biri də öz ətrafında ziyalıları toplamasıdır. Bu gün Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 32 mindən çoxu ali və orta ixtisas təhsillidir. Muxtar respublikanın siyasi, elmi, mədəni potensialının 70 faizdən çoxu Yeni Azərbaycan Partiyasında cəmləşib. Partiya sıralarında gənclərin və qadınların da xüsusi çəkisi artmaqdadır. Hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatında gənclərin sayı 22 minə, qadınların sayı isə 23 minə çatmışdır. Ümummilli liderimizin də ifadə etdiyi kimi, ***"Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir"***.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikamızın sosial-iqtisadi həyatında əldə olunan nailiyyətlər bir daha təsdiq edir ki, partiyamız real işlərlə məşğul olur. Bu gün Naxçıvanda enerji və ərzaq təhlükəsizliyi təmin olunub, muxtar respublikanın etibarlı müdafiə sistemi yaradılıb. Sosial-iqtisadi inkişaf sürətləndirilib. Həyata keçirilən islahatların əhatə dairəsi genişləndirilib. Yeni iş yerləri açılıb, əhalinin yaşayışı yaxşılaşdırılıb. Əsası da odur ki, inkişaf davamlı xarakter daşıyır, müasir infrastruktur yaradılır, yollar çəkilir, istehsalat və xidmət sahələri istifadəyə verilir.




Bu nailiyyətlərin qazanılmasında əməyi olanlara və partiya fəallarına təşəkkürünü bildirən Ali Məclisin Sədri demişdir ki, Yeni Azərbaycan Partiyasının ideyaları və cəmiyyət həyatının ən müxtəlif məsələlərinə dair baxışları məhdud zaman çərçivəsinə yox, uzun bir dövrə və tarixi proseslərə hesablanıb. Bunu nəzərə alan ümummilli liderimiz də deyirdi ki, ***"Yeni Azərbaycan Partiyası Azərbaycanın dününənin, bu gününün və gələcəyinin partiyasıdır"***.

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri Sevda Quliyeva çıxış edərək deyib ki, ümummilli liderimizin müəyyənləşdirdiyi dövlət qadın siyasəti muxtar respublikada uğurla həyata keçirilir. Muxtar respublika qadınları bu gün milli dövlət quruculuğu proseslərinin, ictimai hadisələrin fəal iştirakçısı olaraq sosial, elmi-intellektual, mədəni potensialın artırılması, müstəqil dövlətimizin inkişafı, tərəqqisi istiqamətində öz vəzifələrini layiqincə icra etməyə çalışır. Muxtar respublika əhalisinin 51 faizdən çoxunu təşkil edən qadınların qərar qəbul etmədə, hüquq-mühafizə və icra hakimiyyəti orqanlarında iştirakı genişləndirilir. Muxtar respublikada qadınların Yeni Azərbaycan Partiyasında təmsilçiliyi də sürətlə artmaqdadır. Hazırda üzvlərimizin 6597-si təhsil, 3351-i səhiyyə, 1765-i elm, mədəniyyət və incəsənət, 2029-u idarəetmə, 4976-sı isə digər sahələrdə çalışır. Sevda Quliyeva muxtar respublikada qadınlara göstərilən diqqət və qayğıya görə partiyanın qadın üzvləri adından minnətdarlıq etmişdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü Sahil Tahirli çıxış edərək demişdir: Yeni Azərbaycan Partiyasının keçdiyi yol ümummilli liderimiz Heydər Əliyevin bizə ərməğanı olan müstəqil Azərbaycanın müasir inkişaf tarixidir. Bu gün partiya sıralarında birləşən gənclərimiz ümummilli liderimiz Heydər Əliyev tərəfindən ölkəmizin hərtərəfli inkişafına yönəlmiş quruculuq proqramlarının icrasında və müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində səylə çalışır, dahi şəxsiyyətin ideyaları ətrafında milli birlik nümayiş etdirirlər. Muxtar respublikada görülən böyük quruculuq işləri, yaradılan dayanıqlı ictimai-siyasi sabitlik digər sahələrdə olduğu kimi, dövlət-gənclər siyasətinin də uğurla həyata keçirilməsinə imkan verir. Qazanılan bu uğurların fonunda həm də xatırlayırıq ki, ötən əsrin 90-cı illərində müstəqilliyimiz itirilmək, bununla bərabər gəncliyimiz də məhv olmaq təhlükəsi ilə üzüzə qalmışdı. Bu gün biz məhvdən, uçurumdan yox, gələcəyə inamla addımlayan gənclər ordusundan danışırıq. Naxçıvan gəncləri qurur, yaradır, vətənimiz və xalqımızın işıqlı gələcəyi naminə səylə çalışaraq peşəkar mütəxəssislər kimi yetişir, həyata keçirilən müasirləşmə siyasətinə töhfə verən ictimai qüvvə kimi özlərini göstərir. Yeni Azərbaycan Partiyası sıralarında birləşən muxtar respublika gənclərinin yolu birdir: Bu yol böyük yaradıcı gücə malik olan Heydər Əliyev yoludur!

Sonra tədbir iştirakçıları Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Dünənin, bu günün və gələcəyin partiyası" adlı sənədli televiziya filminə baxmışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ümummilli lider Heydər Əliyev siyasi xəttinin bəhrələri

## Ordubad rayonunun Üstüpü kəndində geniş quruculuq işləri aparılıb

1992-ci il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyası ötən 25 ildə ölkəmizdə əsas hərəkətverici siyasi təşkilata çevrilmişdir. Partiyanın proqramında nəzərdə tutulan tədbirlərin uğurlu icrası Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını davamlı inkişaf yoluna çıxarmışdır. Yeni Azərbaycan Partiyasının təməlində duran inkişaf, sabitlik və yüksək rifah prinsiplərinin muxtar respublikada əməli surətdə həyata keçirilməsi nəticəsində sosial-iqtisadi inkişaf təmin edilmiş, genişmiqyaslı quruculuq işlərinin əsası qoyulmuş, yaşayış məntəqələri yeni görkəm almış, ən ucqar dağ kəndlərində belə müasir infrastruktur yaradılmışdır.

Noyabrın 21-də – Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümündə Ordubad rayonunun Üstüpü kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Üstüpü kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur

Noyabrın 21-də Üstüpü kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 340 yerlik məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 2-si elektron lövhəli olmaqla 16 sinif otağı, fizika və kimya-biologiya laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, psixoloq otağı, kitabxana və idman zalı vardır. Məktəbin kitabxana fondunda 1852-si dərslik və 3050-si bədii ədəbiyyat olmaqla 4900-dən çox kitab vardır. Kitabxanada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılmışdır. Kompüter otağında isə 19 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Məktəbdə hərbi dərslərin tədrisi üçün bütün imkanlar yaradılmışdır.



Məktəbdə tədrisin səviyyəsi ilə tanışlıq zamanı qeyd olundu ki, 2017-2018-ci tədris ilində Üstüpü kənd tam orta məktəbində birinci sinfə 14 şagird qəbul olunub. Məktəbəqədər hazırlıq qrupunda isə 13 şagird vardır.





Məktəbəqədər hazırlıq qrupunun şagirdi, 5 yaşlı Bəkir Nəcəfli Ali Məclisin Sədrinə minnətdarlıq edərək dedi: "Hörmətli Sədr! Kəndimizə gəlişiniz biz uşaqları sevindirir. Çünki bizim üçün müasir məktəb binası istifadəyə verilir. Qürur duyuruq ki, gələcəkdə bu məktəbdə təhsil alacağıq. Söz veririk ki, müstəqil Azərbaycan üçün layiqli övladlar olacağıq. Yaşasın Müstəqil Azərbaycan!"

Elektron lövhəli sinifdə muxtar respublikanın 220 təhsil müəssisəsi ilə Heydər Əliyev Muzeyi arasında "Heydər Əliyev yeni Azərbaycanın qurucusudur" mövzusunda keçirilən distant dərs izlənilmişdir.

Ali Məclisin Sədri müəllimlərlə görüşmüş, onları yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Bu gün ölkəmizin həyatında əlamətdar gündür. Çünki Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü tamam olur. Eyni zamanda Üstüpü kəndinin həyatında da əlamətdar gündür. Aparılan geniş quruculuq işlərindən sonra kənddə məktəb binası, həkim ambulatoriyası, müasir yol, kənd və xidmət mərkəzləri istifadəyə verilir.

Ali Məclisin Sədri Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü və yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Məktəb işi hər bir ölkə üçün ən vacib sahədir. Ümummilli liderimiz Heydər Əliyev tövsiyə edirdi ki, ***"Ölkənin təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır"***. Yeni məktəb binalarının tikilməsi, müasir tədris şəraitinin yaradılması bu gün qarşıda duran əsas vəzifədir. Üstüpü kənd tam orta məktəbi üçün də müasir tədris şəraiti yaradılıb. Bütün bunlar imkan verəcəkdir ki, məktəbi bitirən gənclər ölkəmizdə və dünyanın qabaqcıl universitetlərində ali təhsillərini davam etdirə bilsinlər. Müasir tədris imkanlarına malik məktəb binalarının istifadəyə verilməsi, müəllim tələbkarlığı və şagird çalışqanlığı təhsildə uğur qazanmağın başlıca şərtləridir. Ötən tədris ilində Üstüpü kənd tam orta məktəbini bitirən məzunlardan 4-ü ali məktəblərə, 2-si orta ixtisas məktəbinə,



1-i isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Bütün bunlar məktəbdə tədrisin düzgün təşkilinin nəticəsidir. Kollektiv yaradılan şəraitdən istifadə edərək nailiyyətləri daha da artırmalı, məktəbdə gələcəyimizin təminatçıları olan əsl vətəndaşlar yetişdirilməlidir. Məktəbi bitirən hər bir gənc özünə həyat yolu seçməli, bir peşə öyrənməlidir. Peşə sahibi olan gənc həyatda uğur qazanmaqla yanaşı, həm də ölkəsi üçün yararlı vətəndaş olur.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmiş, onlara tədrisdə uğurlar arzulamışdır.

Məktəbin müəllimi Səmirə Əliyeva minnətdarlıq edərək demişdir: Naxçıvanda təhsilə göstərilən diqqət bütün müəllimlər tərəfindən razılıqla qarşılanır. Bu tədris ilində Payız, Qarahəsənli, Ələkli və bu gün də Üstüpü kəndində müasir məktəb binasının istifadəyə verilməsi etibarlı gələcəyimizin təminatına hesablanıb. Həmçinin elektron lövhəli, kompüterlə təchiz olunan, ən müasir tədris şəraiti yaradılan məktəb binasının istifadəyə verilməsi kollektivdə bayram sevinci yaradıb. Müəllimlər bu qayğının müqabilində daha səylə çalışacaq, milli köklərə bağlı, geniş dünyagörüşlü, savadlı və vətənpərvər gənclərin yetişdirilməsində bilik və bacarıqlarını əsirgəməyəcəklər.

Məzrə kəndindən olan uşaqların məktəbə rahat gəlişini təmin etmək üçün məktəbə yeni xidməti avtomobil təqdim olunmuşdur.

Məktəb binasının həyətində açıq idman qurğuları istifadəyə verilmiş, yaşıllıqlar salınmışdır.



## Üstüpü kənd həkim ambulatoriyası istifadəyə verilib

Muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi yaxşılaşdırılır. Müasir tibb ocaqlarının istifadəyə verilməsi, xüsusilə kəndlərdə tikilən həkim ambulatoriyaları insanların hərtərəfli səhiyyə xidməti ilə təmin olunmasına imkan verir.

Noyabrın 21-də Üstüpü kənd həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, tibbi xidmətin təşkili ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ambulatoriyada 8 otaq – baş həkim, stomatoloq üçün kabinə, palata, doğuş, peyvənd, mama, qeydiyyat otağı və aptek yerləşir. Həkim ambulatoriyasında stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, mikroskop və digər tibbi avadanlıqlar qoyulmuş, fizioterapiya kabinəsi yaradılmışdır. Kabinədə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksək tezlikli cərəyanla müalicə aparatı, parafin əritmə qazanı və "SOLYUKS" lampası vardır. Müasir tibbi avadanlıqlar səhiyyə xidmətinin nümunəvi təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri kənddə tibbi xidmətin təşkili və insanların sağlamlığının qorunması

*Ardı 3-cü səhifədə*





sahəsində görülən işlərin əhəmiyyətini qeyd etmiş, ambulatoriyaların və feldşer-mama məntəqələrinin ixtisaslı kadrlarla təminatı, peyvəndlərin vaxtlı-vaxtında vurulması, hamilə qadınlara patronaj xidmətinin göstərilməsi, gigiyenik qaydalara əməl edilməsi və səhiyyə maarifi işinin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

## Üstüpü Kənd Mərkəzinin açılışı olub







Həmin gün Üstüpüdə yeni kənd mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, 3 mərtəbəli kənd mərkəzində dövlət qurumlarının fəaliyyəti üçün lazımi şərait yaradılmış, iş otaqları istifadəyə verilmişdir. Binada rabitə evi, polis sahə məntəqəsi, kitabxana, baytarlıq məntəqəsi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, statistika otağı və 74 yerlik zal yerləşir. Kitabxanada 7462 kitab vardır. Onlardan 1405-i latın, 6057-si isə kiril əlifbası ilə çap olunmuş ədəbiyyatlardır. Fond yeni nəşrlər hesabına daim zənginləşdirilir.

Yeni Azərbaycan Partiyası Üstüpü kənd ərazi ilk təşkilatının 158 üzvü vardır. Hazırda partiya üzvlərindən 39-u gənc, 67-si isə qadınlardır.

Rabitə evində quraşdırılan 384 yerlik ATS keyfiyyətli rabitə xidmətinin göstərilməsinə və sürətli internetdən istifadəyə imkan verir. Hazırda kənddə 317 telefon və 48 internet istifadəçisi vardır. Burada yeni poçt bölməsi də yaradılmış, dövri mətbuatın, internet və danışıq kartlarının satışı təşkil olunmuş, POS-terminal qoyulmuş, ödənişlərin qəbulu təmin edilmişdir.

## Üstüpü və Düylün kəndlərində yeni xidmət obyektləri fəaliyyətə başlamışdır





Üstüpü və Düylün kəndlərində əhalinin rahatlığının təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər çərçivəsində yeni xidmət mərkəzləri də tikilmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzlərində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, anbar, ərzaq və təsərrüfat malları mağazaları, dərzi yerləşir. Yeni mərkəzlərdə 10 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri xidmət mərkəzlərində ailə təsərrüfatlarında istehsal olunan müxtəlif məhsulların satışına üstünlük verilməsini tapşırmışdır.

Xidmət mərkəzində işlə təmin olunan dərzi Mərdan Məmmədov sadə peşə adamları üçün yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

*Ardı 4-cü səhifədə*

## Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolu istifadəyə verilmişdir



Muxtar respublikanın dağ kəndlərində müasir yol infrastrukturunun yaradılması yaşayış məntəqələrinin inkişafına mühüm töhfədir. İnsanların və nəqliyyat vasitələrinin rahat hərəkətinin təmin olunması həm də kəndlərin turizm potensialını xeyli artırmışdır.

Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq noyabrın 21-də Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını bildirən lenti kəsmiş, görülən tikinti işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, yenidən qurulan yolun uzunluğu 20 kilometrdir. Yol genişləndirilərək asfalt örtük salınmışdır. Yolun üzərində 217 su keçidi qoyulmuş, 701 metr istinad divarı tikilmiş, 8 körpü əsaslı təmir edilmiş, 1300 metr qoruyucu çəpər, 3512 metr beton kanal çəkilmişdir. Bundan başqa Üstüpü kəndində 3500 metr yol hamarlanaraq qum-çınqıl qatı verilmiş, 2 su keçidi qoyulmuş, 267 metr sahilbərkitmə işləri aparılmışdır. Yolboyu yol-hərəkət nişanları quraşdırılmış, kəndlərdə piyadaların təhlükəsiz hərəkəti üçün səkilər salınmışdır.

Yolda görülən işlərlə tanışlıqdan sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Ali Məclisin Sədri kənddə yeni sosial obyektlərin istifadəyə verilməsi və Üstüpünün abad kəndlərin sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: Bu gün ölkəmizdə həyata keçirilən tədbirlər bütün yaşayış məntəqələrinin, eləcə də kəndlərin simasını dəyişir, insanların yaşayış səviyyəsini yaxşılaşdırır. Hər bir yaşayış məntəqəsinin abadlaşması ümumilikdə ölkəmizin inkişafı deməkdir. Bütün bu tədbirlər ölkəmizdə uğurla həyata keçirilən Heydər Əliyev siyasi xəttinin bəhrələridir. Bu gün Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsinin 25-ci ildönümüdür. Ötən dövrdə Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafını təmin etmişdir. Üstüpü kəndində görülən quruculuq işləri, istifadəyə verilən yeni sosial obyektlər də bu inkişafın bir kəndin timsalında göstəricisidir.

Ali Məclisin Sədri demişdir: Bu gün Üstüpü kəndi tamamilə müasirləşmişdir. Kənddə müasir tədrisin tələblərinə uyğun məktəb binası, dövlət qurumlarının səmərəli fəaliyyəti üçün kənd mərkəzi, insanların tələbatını ödəyəcək həkim ambulatoriyası, xidmət mərkəzi qurulub, kənd sürətli in-



ternetlə təmin edilib. 20 kilometrlik Üstüpü kənd avtomobil yolu Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Prezidentin Ehtiyat Fondundan ayrılmış 6,1 milyon manat vəsaitin hesabına çəkilib.

Ali Məclisin Sədri kənddə tikinti işlərinin keyfiyyətlə aparıldığını bildirmiş, bu münasibətlə muxtar respublikada tikinti sahəsində çalışanlara təşəkkür etmişdir.

Qeyd olunmuşdur ki, kənddə yaradılan bu şərait insanların rahat yaşayışına xidmət edir. Vaxtilə kəndin yol problemləri vardı. İnsanlar mərkəzlə əlaqə saxlamaqda çətinliklər çəkirdi. Uşaqlar lazımi şəraiti olmayan məktəbdə təhsil alırdı. Xidmət sahələri səmərəli fəaliyyət göstərmirdi. Lakin bu gün qeyd olunan problemlərin hər biri həll olunub, kənddə yeni xidmət sahələri yaradılıb, iş yerləri açılıb. Sakinlər də yaradılan bu şəraitdən səmərəli istifadə edərək ölkəmizin inkişafına töhfə verməli, torpaqlar əkilməli, tikilənlər-qurulanlar qorunub saxlanılmalıdır.

Ali Məclisin Sədri ölkəmizin siyasi və ictimai həyatında mühüm yeri olan Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 25-ci ildönümü və kənddə aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik etmişdir.

Kənd ağsaqqalı Məhəmməd Əsədov çıxış edərək demişdir: Bu il aparılan quruculuq işləri Üstüpü kəndinə yenilik və inkişaf bəxş edib. Kəndə yol çəkilib, məktəb binası tikilib, sakinlərin rahat yaşaması üçün bütün tədbirlər görülüb. Üstüpü bu gün qəsəbəyə çevrilib. Kəndin siması kökündən dəyişilib. Sakinlər bu işlərlə fəxr edir. Məhəmməd Əsədov bütün kənd sakinləri adından minnətdarlıq etmişdir.

Üstüpü kəndinin yetirməsi, ziyalı Yusif Babanlı minnətdarlıq edərək demişdir: Üstüpü kəndində yeni sosial obyektlərin Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümündə istifadəyə verilməsi kəndin həyatında əlamətdar hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafını təmin edib. Bu gün ölkə Prezidentinin rəhbərliyi altında Azərbaycanın nail olduğu inkişafın ən bariz nümunəsi müasir Naxçıvandır. Fəxr edirik ki, muxtar respublikada aparılan geniş quruculuq işləri, əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlər Üstüpü kəndini də əhatə edib.

Ali Məclisin Sədri kənd sakinləri ilə xatirə şəkli çəkdirmişdir.

* * *

Üstüpü kəndində abadlıq işləri də görülmüş, 1200 metr fiber-optik kabel, 2700 metr rabitə, 1770 metr elektrik və 550 metrlik qaz xətti çəkilmiş, 9350 metr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Həmçinin kənddə əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədi ilə 2000 metr müxtəlif diametrli içməli su xətti də çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 950